# MÜASİR FARS ŞEİRİNDƏN SEÇMƏLƏR



**Ehsan PƏRSA**
***(1979)***

Dəyişilmişəm bir az.
Məni tanımaq üçün
əzişdir
şəklimi!

***

Saçların olmasaydı,
necə çəkərdim
küləyin rəsmini?

***

Sevirəm
səninlə birlikdə addımlamağı...
Yol tikəcəyəm
sənin üçün -
ev əvəzinə...

***

İçimdə
bir qar adamı var
ki, aşiqdir Günəşə.
Və bu,
dünyadakı bütün eşq hekayələrinin
xülasəsidir...

***

Sən
daş dövrünə qaytarırsan məni.
Adəmin
çayı
Həvvanın gülüşüylə
şirin etdiyi zamana...

***

Mən yarpaqların dilini bilirəm!
Məsələn, “xış-xış”,
yəni “Aman ayrılıq əlindən!”

Heç bir yarpaq
xışıldamaz
ağacdan ayrılmadan...